# AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
# BAKI DÖVLƏT UNİVERSİTETİ

## AZƏRBAYCAN ŞİFAHİ XALQ ƏDƏBİYYATI KAFEDRASI

## MAGİSTRATURA TƏHSİL PİLLƏSİ ÜÇÜN

**İxtisas: 060201 Filologiya**

## FƏNN: İF-M 2523 “QƏDİM DÜNYA MİFLƏRİ”

**(II kurs)**

## PROQRAM

**BAKI - 2016**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**AZƏRBAYCAN ŞİFAHİ XALQ ƏDƏBİYYATI KAFEDRASI**

**MAGİSTRATURA TƏHSİL PİLLƏSİ ÜÇÜN**

**İxtisas: 060201 Filologiya**

**FOLKLORŞÜNASLIQ VƏ MİFOLOGİYA**

**FƏNN: İF-M 2523 "QƏDİM DÜNYA MİFLƏRİ"**

**(II kurs)**

# PROQRAM

**Bakı Dövlət Universitetinin**
**Rektorunun 18 iyul 2016-cı il tarixli,**
**R-75 saylı əmri ilə təsdiq edilmişdir.**

**BAKI - 2016**

**Tərtib edən:** Məmmədov Məhəmməd Məmmədsəid oğlu – Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının dosenti, filologiya elmləri namizədi

**Redaktor:** Orucova Səhər Hidayət qızı – Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının müdiri, professor, filologiya üzrə elmlər doktoru

**Rəyçilər:** Seyfəddin Rzasoy – AMEA-nın Folklor İnstitutunun "Mifologiya" şöbəsinin müdiri, filologiya üzrə elmlər doktoru, dosent

Həsənova Könül Kamil qızı – Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının müəllimi, filologiya üzrə fəlsəfə doktoru

***© "Bakı Universiteti" nəşriyyatı, 2016***

# QƏDİM DÜNYA MİFLƏRİ

## İZAHAT VƏRƏQİ

«Qədim dünya mifləri» fənni (İF-M 2523) magistraturanın Folklorşünaslıq və mifologiya (MSM 02.00.06) ixtisası üzrə II kursunda 30 saat mühazirə, 30 saat məşğələ olmaqla semestr ərzində cəmi 60 saat həcmində tədris edilir. Fənnin həcmi mütəxəssis hazırlığı üzrə Dövlət Standartlarına uyğundur. Fənn üzrə tədris işinin əsas növü mühazirə və məşğələlərdir. Məşğələlərlə yanaşı, tələbənin dərsdənkənar vaxtda yerinə yetirdiyi müntəzəm sərbəst işləri də tədrisin keyfiyyətinə əhəmiyyətli dərəcədə təsir göstərir.

### Fənnin mənimsənilməsinin məqsəd və vəzifələri

**Kursun məqsədi** – magistrantları mif və mifologiya, mifoloji zaman və məkan, mifoloji şüur, mif və ayin, mifoloji mətnin özünəməxsus cəhətləri, mif və nağıl, mif və epos, mif və əfsanənin əsas fərqi haqqında hərtərəfli məlumatlandırmaq, dünya xalqlarının miflərinin tipoloji baxımdan 3 qrupa ayrılması və hər bir qrupun əsas məzmunu barədə onlara bilgi vermək, dünyanın 10-dan artıq qədim xalqının zəngin mifoloji düşüncəsi, allahlar panteonu ilə tanış etmək, həmin xalqların kosmoqonik, etnoqonik və təqvim mifləri, ilkin əcdad və mədəni qəhrəmanları, mifologiyalarının mənbələri və tədqiqatçılarını tələbələrə öyrətməkdir.

**Kursun vəzifələri:**

1. Tələbələrdə mif və mifologiya, mifoloji şüur, mifoloji zaman və məkan, mif və ayin və s. haqqında təsəvvür yaratmaq;
2. Tələbələri dünyanın bir çox mifoloqlarının miflərin təsnifi ilə bağlı fikir və mülahizələri ilə tanış etmək;

3. Dünya xalqlarının miflərinin ümumi şəkildə tipoloji baxımdan kosmoqonik, etnoqonik və təqvim miflərinə ayrılması, onların əsas məzmununu tələbələrin diqqətinə çatdırmaq;
4. Dünyanın 10-dan artıq xalqının mifoloji düşüncəsi, allahlar panteonu, kosmoqonik, etnoqonik və təqvim mifləri, ilkin əcdad və mədəni qəhrəmanı, mənbələri və tədqiqatçıları barədə magistrantları məlumatlandırmaq;
5. Magistrantların nəzərini Şumer-Akkad, Misir, Çin, skandinav, türk və s. xalqların mifoloji düşüncəsindəki əsas miflərə yönəltmək;
6. Magistrantların allahlar panteonunda eyni bir funksiyanı yerinə yetirən allahın başqa bir xalqın allahlar panteonunda daha önəmli rol oynaması, oxşar motivli mif mətnlərinin spesifik xüsusiyyətlərini müəyyənləşdirib seçmək bacarıqlarını inkişaf etdirmək.

**Fənnin tədris prosesində yeri**

«Qədim dünya mifləri» fənninin (İF-M 2523) təqdim olunan proqramında tədris prosesində qarşıya qoyulan məqsəd və vəzifələrin doğurduğu nüanslara diqqət yetirilmişdir.

Kursun sonunda tələbələrin dünyagörüşünə aşağıdakı elementlər əlavə olunacaqdır:

a) dünya xalqlarının və əcdadlarımızın mifoloji dünya modeli ilə bağlı təsəvvürlər sistemi haqqında məlumatlar;

b) dünyanı özünəməxsus qanun və vasitələrlə, izah edən mifologiya, mifoloji məkan və zaman, mifoloji şüur, mifoloji mətn haqqında məlumatlar;

c) mifoloji çağda Tək Gerçək Bilik kimi qəbul olunan mifin tarixi çağda bu funksiyasını itirməsi, mif və ədəbiyyatın münasibətlərin aralıq mərhələ olan folklorun mifsizləşmiş mətnləri çərçivəsində gerçəkləşməsi, mifin folklorun müxtəlif janrların meydana gəlməsində rolu haqqında məlumatlar;

ç) miflərin təsnifi, həm də müxtəlif xalqların mifologiyasının mənbələri və tədqiqatçıları haqqında E.B.Taylor, V.Vundt,

M.İ.Şaxnoviç, Y.M. Meletinski, S.N.Kramer, M.İ. Korostovsev, M.E. Matye, N.A.Kun, Yuan Ke, A.İnan kimi xarici alimlərin əsərləri ilə tanışlıq;

d) dünyanın 10-dan artıq xalqının mifoloji düşüncəsi, allahlar panteonu, kosmoqonik, etnoqonik və təqvim mifləri, ilkin əcdad və mədəni qəhrəmanı, kultlarına dair informasiyalar;

e) dünya xalqlarının mifoloji mətnlərinin kosmoqonik, etnoqonik və təqvim miflərinə dair informasiyalar (bilgilər);

ə) dünyanın 10-dan artıq xalqının mifoloji düşüncəsində mühüm yer tutan allahların funksiyalarına aid məlumatlar.

Yeni informasiya və biliklərin tələbələrin əvvəllər qazandığı biliklər bazası üzərində bərqərar olmasına, başqa sözlə, fənlərarası əlaqələrin gözlənilməsinə ciddi şəkildə əməl edilmişdir. Belə ki, magistrantların bakalavr təhsil pilləsində «Azərbaycan dastanları» və «Dünya ədəbiyyatı» fənlərindən qazandıqları biliklərin yeni fənn vasitəsilə inkişaf etdirilməsi nəzərdə tutulmuşdur.

**Fənnin mənimsənilməsi nəticəsində tələbə bilməlidir:**

– əcdadlarımızın dünyanı dərk etməsində, anlamasında mifologiyanın əvəzsiz rol oynadığını;
– hər bir mifin arxasında həmin xalqın təfəkkürü, inamı, əqidəsi, mərasim xarakteri daşıyan əxlaq kodeksi, davranış normalarının durması;
– dünya xalqlarının miflərinin tipoloji baxımdan kosmoqonik, etnoqonik və təqvim miflərinə ayrılmasını;
– dünyanın 10-dan artıq xalqının mifoloji düşüncəsində allahlar panteonu, ilkin əcdad və mədəni qəhrəmanının daşıdığı funksiyalarını;
– mifologiya xalqın soykökünü, ilkin psixologiyasını, ulu əcdadların həyata, cəmiyyətə, təbiətə, zamana olan baxışlarının mühüm əhəmiyyətə malik olmasını;
– qədim türk mifologiyasının qaynaqları və tədqiqatçıları, dini-mifoloji sistemin strukturunu;

– Türk dini mifoloji sistemində Tanrının funksiyalarını, ilkin əcdad, dağ, ağac, Boz qurd və s. kultların daşıdığı mənalarını;
– Azərbaycan mifoloji mətnlərinin toplanma, nəşr və tədqiq tarixini, qaynaqlarını və miflərimizin təsnifatını.

**Bacarmalıdır:**

– mifoloji çağda tək gerçək bilik kimi qəbul olunan mifi nağıl, epos və əfsanədən fərqləndirməyi;
– dünyanın 10-dan artıq xalqının mifoloji düşüncəsində allahlar panteonu, ilkin əcdad və mədəni qəhrəmanının daşıdığı funksiyaları müəyyənləşdirməyi;
– dünyanın 10-dan artıq xalqının mifoloji düşüncəsində allahlar panteonu, mədəni qəhrəman və ilkin əcdadın hansı xalqın mifoloji təfəkkürünə aid olduğunu;
– miflərin təsnifatı ilə bağlı bu və ya digər nəzəri fikrin hansı tədqiqatçıya aid olduğunu müəyyənləşdirməyi.

**Yiyələnməlidir:**

– dünya xalqlarının mifoloji mətnlərini nəql etmək qabiliyyətinə;
– mifoloji mətnləri təhlil etmək, bu miflərin kosmoqonik, etnoqonik və ya təqvim miflərinə aid olmasını, dünyanın 10-dan artıq xalqının mifoloji düşüncəsində əsas mifləri ayırd etmək vərdişlərinə.

## Mövzular üzrə saatların bölgüsü

| № | Mövzular | Saatların miqdarı | O cümlədən | |
|---|---|---|---|---|
| | | Cəmi | Müha. | Məş. |
| 1 | Mif və mifologiya | 4 | 2 | 2 |
| 2 | Miflərin təsnifi | 4 | 2 | 2 |
| 3 | Şumer - Akkad mifologiyası. «Bilqamıs» dastanı dünyanın ən qədim mif toplusu kimi | 4 | 2 | 2 |
| 4 | Misir mifologiyası. Allahlar panteonu | 4 | 2 | 2 |
| 5 | Kiçik Asiya xalqlarının mifologiyası (Het, Hanaan, Urartu) | 4 | 2 | 2 |
| 6 | Yəhudi mifologiyası. Yəhva baş tanrı kimi | 4 | 2 | 2 |
| 7 | Hind mifologiyası. Allahlar panteonu | 4 | 2 | 2 |
| 8 | Çin mifologiyası. Əjdaha kultu | 4 | 2 | 2 |
| 9 | Fars mifologiyası. «Avesta» | 4 | 2 | 2 |
| 10 | Yunan mifologiyası. Roma mifləri | 4 | 2 | 2 |
| 11 | Alman-Skandinav mifologiyası | 4 | 2 | 2 |
| 12 | Slavyan mifologiyası. Allahlar panteonu | 4 | 2 | 2 |
| 13 | Türk mifologiyası. Türk-dini-mifoloji sistemində Tanrının yeri. Kultlar /əcdad, dağ, ağac, Boz qurd və s./ | 4 | 2 | 2 |
| 14 | Azərbaycan mifoloji mətnlərinin toplanma, nəşr və tədqiqi tarixindən | 4 | 2 | 2 |
| 15 | Azərbaycan mifoloji görüşlə- | 4 | 2 | 2 |

| | | | | |
|---|---|---|---|---|
| | rinin qaynaqları və miflərimizin təsnifatı | | | |
| **Cəmi:** | | **60** | **30** | **30** |

## Mövzuların qısa məzmunu

### 1. Mif və mifologiya

Mifologiya - milli-mənəvi mədəniyyətin qaynağı və tarixən ən ilkin şəkli kimi.

**Mif şüur və davranış modeli aktı kimi**. Mifin mifoloji çağın dünyagörüşü faktı olması. Mifologiya dünyanın özünəməxsus qanun və vasitələrlə biçimləyən, izah edən dinamik işarələmə sistemi kimi. Xaosun kosmosa çevrilməsi mifologiyanın başlıca mənasını təşkil etməsi. «Mifologiya» anlayışının elmi ədəbiyyatlarda bir neçə mənada işlədilməsi.

Miflərdə sakral və profan qoşalığı. Mifin əsas cəhətlərindən biri əşyanın, predmetin genezisi haqqında bilgi, onun quruluşunun izah edilməsi.

**Mifoloji məkan və mifoloji zaman.** Mifoloji zaman ilk əcdadların yaradılışı, ilk predmet zamanı kimi. Silsiləvi qapalı zaman mifoloji zamanın ən mühüm keyfiyyəti kimi. Mifdə məkan və zaman qarşılığı. Mif və ayin.

**Mifoloji şüur.** Mifoloji şüurun parçalanaraq tarixi şüura keçid prosesində miflərin yalnız paradiqmatik funksiyaların deyil, eyni zamanda derituallaşdırma, demifləşmə keçirmələri nəticəsində folklor mətnlərinə çevrilməsi. Mifologiya dünya modelində ifadəsini tapan sistem kimi kök dil çağında təşəkkül tapması.

Mifoloji çağda Tək Gerçək Bilik kimi qəbul olunan mifin tarixi çağda bu mühüm funksiyasını itirməsi. Mif və ədəbiyyatın münasibətləri aralıq mərhələ olan folklorun mifsizləşmiş mətnləri çərçivəsində gerçəkləşməsi.

**Mif və nağıl**. Onlar arasındakı əsas fərqin sakrallıq – qeyri-sakrallıq, gerçəklik-uydurma xəttiilə müəyyənləşdirilməsi.

**Mif və epos**. Eposda mifin qorunub saxlanılması bir tərəfdən eposun qədim mənbəyə malik olmasını, digər tərəfdən isə xalqın təfəkküründə mifoloji təsəvvürlərin yaşama qabiliyyətini əks etdirən qanuni hadisə kimi.

**Mifoloji mətn.** Mifoloji mətnin özünəməxsus cəhətləri. Mifoloji mətnin fərdi və ya kollektiv yaradıcılıq örnəyi (bədii uydurma) kimi deyil, nə vaxtsa həqiqətən baş vermiş presedent kimi qavranılması.

Diaxronik və sinxronik aspekti biləşdirən mifin insanı əhatə edən həyat həqiqətini özünəməxsus şəkildə izah etməsi [1], [3], [4], [9], [13], [16], [17], [34], [52], [77].

## 2. Miflərin təsnifi

Dünyanın bir çox mifoloqları tərəfindən miflərin təsnifi (E.B.Taylor, V.Vundt, M.İ.Şaxnoviç, Y.M.Meletinski, S.Q. Klyaştornı və başqaları).

Dünya xalqlarının miflərinin ümumi şəkildə tipoloji baxımdan 3 qrupa ayrılması: 1. Kosmoqonik miflər; 2. Etnoqonik miflər; 3. Təqvim mifləri.

Kosmoqonik miflərin əsas məzmununun «nizamlayıcı kosmik başlanğıcla dağıdıcı xaotik başlanğıcın mübarizəsi», dünyanın yaranması, təbii obyektlərin formalaşması və s. kimi hadisələrdən ibarət olması. Kosmoqonik miflərdə təbiət insan əlaqəsi.

Mifopoetik düşüncədə xaos nizamsızlıq, qaydasızlıq, boşluq, qaranlıq və s. kimi təsəvvür olunması. Dünyanın kosmik modelinin üç ölçülü xarakteri. Dünyanın yaradılmasında müəyyən qayda və ardıcıllıq. Yaradılışın xaosa qarşı bir qayda yaratmaq zərurətindən irəli gəlməsi.

Etnoqonik (geneoloji miflər). Bu miflərin əsas məzmununun insanların yaranması, evlənmə və qohumluq qaydalarının, dövlətin, yasaqların və s. meydana çıxmasının təşkili. Dünya xalqlarının mifoloji düşüncəsində insanın yaranmasının müxtəlif şəkildə izahı. İlk insan və ya insan cütünün yaranmasının yalnız tanrılarla deyil, həm də müxtəlif təbiət qüvvələrilə bağlılığı.

Təqvim mifləri. Bu miflərdə etnosun zaman kateqoriyasına münasibəti və onun ətraf mühitlə əlaqəsi. Kainatın dövrülüyü və həyatın tənzimlənməsi [1], [3], [4], [5], [9], [13], [17], [34], [77].

## 3. Şumer -Akkad mifologiyası. «Bilqamıs» dastanı dünyanın ən qədim mif toplusu kimi

Şumer - Akkad mədəniyyəti Şərqin mədəniyyət beşiyi hesab edilməsi. Bəşər tarixində Şumer dövrü / B.e.əvvəl IV minilliyin sonu II minilliyin əvvəli/. İkiçayarasında Hassun, Hələf, Ubeyid, Uruk və s. mədəniyyətləri.

Bəşər tarixində mühüm rol oynayan şumerlərin haradan gəlməsi, onların dili ilə bağlı mübahisələr. Qədim şəhər dövlətlər – Ur, Uruk və Kiş daha çox inkişaf etmiş sivilizasiyaların mərkəzi kimi.

Şumer-Akkad ədəbi nümunələrinin 4 qrupa bölünməsi. Akkad hökmdarı Sarqonun Şumeri fəthindən sonra (e.ə. II minilliyin əvvəli) Şumer dilinin yalnız ədəbi dil kimi işlədilməsi. Şumer ədəbiyyatının Akkad, Babil, Assur mədəniyyətlərinə zəmin olması.

Zəmanəmizə gəlib çatmış Şumer və Akkad miflərində dünyanın yaranması və quruluşu, allahların doğulması, onların yaradıcı və dağıdıcı fəaliyyətləri. Şumerlərin təsəvvürlərində tanrılar təbiət qüvvələrinin təcəssümü kimi.

Şumer mifoloji düşüncəsində 4 əsas tanrı (Anu, Enlil, Enki, Ninhursaq). Şumer miflərinə görə bütün allahların ilkin okean ilahəsi Nammudan yaranması. Anu və Ki-nin nikahından doğulan tanrılar. Şumer allahı Enlil («küləklər hökmdarı» anlamında) baş allah mövqeyində.

Şumer dövründə ikinci dərəcəli rol oynayan Mardukun Babil dövründə baş allaha çevrilməsi. «Enuma eliş» («Yuxarıya yüksələn zaman» və ya «Yuxarıda olan zaman») adlı didaktik poemada Marduka yaradıcı allah funksiyası verilməsi..

Şumer mifoloji düşüncəsində 3 əsas mif: 1. İştarın cəhənnəmə enməsi (Kramerin tədqiqatı nəticəsində həmin mifin «Dumuzi

və İnanna haqqında mif» kimi oxunması); 2. Yaradılış haqqında mif; 3. Dünya daşqını haqqında mif.

İştarın yeraltı dünyaya enməyinin əsas səbəbi. İlin fəsilləri ilə bağlı olan bu mifin ritual mif adlandırılması. Dumuzi «ölüb-dirilən» tanrı kimi.

Səma cisimləri – Ay allahı Nanna, yaxud Sinin doğulması haqqında miflər. Su allahı Enki və torpaq ilahəsi Ninhursaq haqqında miflər. Müdriklik və su tanrısı Enki insanların yaradıcısı kimi. İlahə Ninmah tərəfindən yaradılan 6 idbar. İlk insanın yaradılmasında tanrı Kinqunun qanı. Səmavi kitablarda tanrı qanının ilahi nəfəslə əvəzlənməsi.

Şumer mifoloji düşüncəsindəki ilahə Nintu («qabırğa xanım» və ya «həyat verən» anlamında) ilə Həvva arasındakı paralellik.

İkiçayarası xalqların təsəvvürlərində yeraltı dünya və onun hakimi Erişkiqal. Mal-qara allahı Lahar, onun bacısı taxıl ilahəsi Aşnan. Naxırçı Dumuzi və əkinçi Enkimdu haqqında olan mif qədim yəhudi düşüncəsinin məhsulu sayılan Avel və Kainlə bağlı mifin əsası kimi.

Şuruppakın hakimi Ziusudra səmavi kitablardakı Noy/ Nuhun Şumer prototipi kimi.

Şumerlərdə yeni il bayramı. Yeni il bayramında baş tanrı Mardukun öz arvadı Tsarpanit ilə müqəddəs nikahı .

«Me» - tanrı qanunları. Talelər cədvəli. Tale cədvəlinin oğruçusu - Anzu (Anzud, İmdiqud, İm-Diqud). Adap haqqında əfsanə. Adap-Adəm paralellikləri.

«Bilqamıs» haqqında Yaxın Şərqin 4 qədim dilində (şumer, akkad, het, hurri) bizə çatmış çoxlu əfsanə və nağıllar. . Dastanın akkad tərcüməsinin Babil, Nineviya və Periferiya versiyaları əsasında bərpası. Akkad variantında mövzu və süjet xəttinin 4 hissəyə bölünməsi: 1. Enkidu haqqında poema; 2. Himbaba ilə döyüş; 3. İştar tanrıçanın məkrli fəaliyyəti; 4. Bilqamısın ölümsüz həyat axtarışı.

Şumer nağıl-pritçalarını vahid xətt üzrə birləşdirən uruklu kahin Sin-like-unnin (m.ə. II min. sonu). On bir lövhədən ibatə

olan bu mətnin üzünü köçürən assuriyalı kahin Nabu-zukup-kenu (m.ö. III əsr) Şumer dilindən tərcümə etdiyi «Bilqamıs və söyüd ağacı» nağılını on ikinci lövhə kimi əlavə etməsi.

Şumer mətnlərində 5 nəğmə. Dastanda qədim insanların əbədi həyat, ölməzlik haqqında arzusu və düşüncələri. Bilqamıs allahlara və insanlara xas olan xüsusiyyətləri özündə əks etdirən ilk mifik mədəni qəhrəman kimi. Epik mətnlərdə o, Uruk hakimi Luqalbandanın və günəş allahı Utunun nəslindən olan ilahə Ninsunun oğlu kimi.

«Bilqamıs» («hər şeyi bilən insan və ya dünyanın hər üzünü görmüş insan») dastanında rast gəlinən mifik obrazlar. Şumer-türk paralelliyi. «Bilqamıs», «Oğuz xaqan», «Kitabi-Dədə Qorqud» dastanları arasında oxşar cəhətlər.

«Bilqamıs» dastanında ölüm və əbədi həyat – ölməzlik problemi. Bilqamıs və Utnapişti. Tanrının məsləhətilə dünya daşqınından qurtulan Utnapiştinin Nuhla eyniləşdirilməsi. Bilqamıs və Dədə Qorqud. Ölüb-dirilmə motivinin şumer Dumuzisi ilə oğuz Domrulunu qoşalaşdırması.

«Koroğlu» dastanının daha qədim mifoloji motivlərini saxlayan türkmən Goroğlusu ilə «yeraltı qaranlıq dünya» anlamı verən «Kur» sözü arasında semantik yaxınlıq. Elmi ədəbiyyatda və dastanın başqa dillərə tərcüməsində Bilqamısın adının Gilqamış /Qilqameş/ Bilqameş və s. kimi verilməsi.

«Bilqamıs» dastanının akkad variantının azəri türkcəsinə İ.Vəliyevin tərcüməsində [5], [7], [10], [13], [15], [19], [23], [30], [34], [64].

## 4. Misir mifologiyası. Allahlar panteonu

Qədim Misir miflərinin ilkin yazılı mənbələri («Piramida mətnləri», «Ölülər kitabı» və s.). Misir mifoloji təfəkkürünün bəzi xüsusiyyətləri.

**Misirlilərin düşüncəsində allahların yeri**. Günəş allahı Atum – Ra (Amon-Ra) dünyanın, allahların, insanların, heyvan-

ların, bitkilərin yaradıcısı kimi. Misirdə günəş allahı kultunun Şumer-Akkad rituallarına nisbətən daha mühüm rol oynaması.

Dünyanın yaradılışı ilə bağlı Heliopol, Hermopol, Fiv və Memfisdə yaranan kosmoqonik miflərin müxtəlifliyi.

Amonun yaradıcı allah kimi Hermopol 8 allahı içərisində mühüm yer tutması. Fiv nomunda (bölgəsində) kosmoqonik allahlar üçlüyü (Günəş allahı – Amon, Səma ilahəsi – Mut, ay allahı - Xonsu). Memfisdə etioloji allah üçlüyü (Ptax – günəş allahı, Sohmet – müharibə ilahəsi, oğlu Nefertum – bitki allahı).

Heliopulun məşhur «Böyük Allahlar doqquzluğu» (Atum – Ra, Şu-Onuris, Tefnut, Geb, Nut, Oziris, İzida, Set və Neftida).

Misir miflərinin qruplaşdırılması: 1. Ozirislə bağlı miflər; 2. Ra ilə əlaqədar miflər; 3. Nilə həsr olunmuş miflər.

Ozirislə bağlı mifdə 3 əsas mövzu.

Ozirislə bağlı mifdə təbiətin ölüb-dirilməsi. Yer allahı Gebin oğlu Oziris yeraltı dünyanın sahibi və ölənlərin ruhunu mühakimə edən cəhənnəm hakimi kimi. Ozirisin arvadı İzida sehrkar ana ilahə, Qor-oğul allah.

Günəş allahı Atum-Ra ilə bağlı miflər. Ra-nın gizli adları. Ra-nın göz yaşından əmələ gələn ilk insan. Günəşin «gözləri» - qızları haqqında 2 hekayət («Xator-Tefnutun Nubiyadan qayıtması» və «Günah işlədən adamların məhv edilməsi»).

Misirlilər üçün həyat demək olan Nil çayının canlı varlıq və allah kimi Xapi obrazında təcəssümü.

Misirin qədim dini ədəbiyyatında allah-firon, firon-allah epiteti. Fironun allahın oğulu adlandırılması. Onları birləşdirən 3 əsas cəhət. Fironun həyatda olarkən Qor, öləndən sonra ölülər hökmdarı Ozirisə çevrilməsi.

Heyvan şəkilli allahlar: öküz-Apis, Minebis, inək-Xator, İzida, qoyun-Amon və Xnum, ilan, timsah – Sebek, pişik-Bast, Şir-Tefnut, çaqqal-Anubis, şahin-Qor və s. [5], [7], [9], [10], [13, II k.], [15], [18], [26], [29], [33], [34], [37], [41],

## 5. Kiçik Asiya xalqlarının mifologiyası (Het, Hanaan, Urartu)

Qədim mənbələrdə hetlər. Het mifologiyasının ən qədim təbəqəsini hatti mifologiyasının təşkil etməsi.

Hatti mifologiyasında baş allah günəş allahı Esta (hetlərdə İstanus), taxt-tac allahı Halmasuit, məhsuldarlıq allahı-Telepin (hetlərdə Telepinus), Hattusasın hamisi davakar ilahə İnara, axirət dünyasının ilahəsi Lelvani, toxum ilahəsi Kait, ay ilahəsi Kaşku, tufan allahı Taru və s. Het mənbələrində «Hatti ölkəsinin min allahı» ifadəsi. .

Het əsatirlərinin 2 bölümü; 1. Tufan allahının ilan İlluyank ilə mübarizəsi (2 variantda); 2. «Ölən-dirilən allah» Telepin haqqında miflər.

Hurrilərə mənsub «Kumarva əfsanəsi». Hurri -əfsanələrində Kumarva allahların atası və Şumer-Babil allahı Enlilə bənzədilməsi.

**Hanaan (Uqarit) mifologiyası.** Bibliya və Finikiya mənbələrində Hanaan mifologiyası. Uqarit miflərinin əsasında məhsuldarlıq və həyat allahı Baal ilə sonsuzluq (qeyri-məhsuldarlıq) və ölüm allahı Mot arasında amansız müharibə.

Hanaan miflərinin 3 əsas qrupu. Məhsuldarlıq tanrısı Baalın dəniz və çaylar allahı Yam-Naxar ilə mübarizəsi. Xadad haqqında mif. Baaldan Şimşək və ildırım allahı kimi danışıldıqda onun Xadad adı ilə əvəzlənməsi..

Keret haqqında əfsanə ilə bağlı müxtəlif mülahizələr. Əsərin əsas personajı olan Keretin Xubur padşahı ilahi əcdad Nikmaddu ilə əlaqəsi.

«Daniel haqqında əfsanə»də qəhrəman Akxatın ölümü və dirilməsi mifin əsas süjetini təşkil etməsi.

**Urartu mifologiyası**. Urartu mifoloji düşüncəsində allahların antropomorf və zoomorf cizgiləri. Urartu allahlar panteonu. Baş allah Haldi, ildırım, tufan, daşqın və müharibə tanrısı Teyşeba, günəş allahı Şivi, ay allahı Şelardi, Yer (torpaq) allahı Ebani və s. [5], [7], [10], [13 II k. ], [18], [22], [34].

## 6. Yəhudi mifologiyası. Yəhva baş tanrı kimi

«Əhdi-ətiq» yəhudi mifoloji düşüncəsini öyrənmək üçün əsas mənbə kimi. «Əhdi-ətiq» mifologiyasının öyrənilməsində 3 əsas problem. Yəhudi mədəniyyəti və mifologiyasının alçaldıcı reallıq («Babilistan əsirliyi» və s.) və ümidlər, arzular şəraitində inkişafı.

Yəhva baş tanrı kimi. Yəhvanın genetik olaraq təbiət mifi ilə əlaqədar olması. Dünyanın yaranması haqqında təsəvvürün 2 variantı: kahinlər versiyasında Yəhvanın dünyanı sudan, yəhvaçı ənənəsində isə dünyanın heç nə bitməyən susuz səhradan yaratması.

Yəhva və ya Elohimin 6 gün və altı mərhələdə dünyanı yaratması. Gildən düzəldilən ilk insan. İnsanın yaradılmasında tanrı qanının ilahi nəfəs ilə əvəzlənməsi. Adəm və Həvva.

Edemdə cənnət bağı. Dünya daşqını və məhv olma təhlükəsi. Noy/Nuh Elohim qarşısında yeganə pak və mömin bəndə kimi.

Əkinçi Kain və maldar Avel haqqında mif. Kain mədəni qəhrəman kimi. Bu mifin Dimuzi və Enkimdu arasındakı mübarizəni əks etdirən Şumer mifindən əxz olunması.

Yəhudi mifologiyası və ədəbiyyatında Babil (Vavilyon) qülləsi haqqında mifin yeri. Bu mifin mətninin əsasında iki müxtəlif ənənənin durması. Səhradakı şəhərlərin (Sodom və Qomorra) məhv edilməsi hekayəti Avraam (İbrahim) haqqındakı mifin əlavəsi kimi. Qədim yəhudi mifologiyasında kult mifləri / Pasxa və s. Allahın Sinayda qalın bulud, Sionda isə alov şəklində görünməsi mifi [5], [7], [10], [13, II k.], [18], [26], [34], [41], [50], [56], [73], [82[.

## 7. Hind mifologiyası. Allahlar panteonu

Hind mifologiyasının mənbələri və tədqiqatçıları. Hindistanda yaranmış mifoloji sistem və onun tipləri (U.Norman Braun, V.N.Toporov və başqalarının təsnifatı). Vedizm, Hinduizm və

Buddizm hind mifologiyasının ayrı-ayrı komponentləri kimi. Qədim hind mifologiyasının öyrənilməsində ədəbi mənbələrin misilsiz rolu («Riqveda» /«Himnlər kitabı»/ «Mahabharata», «Ramayana» və s.).

Hind mifologiyasının allahlar panteonu (İndra, Surya, Aqni, Soma, Varuna, Rudra və s.). Hind mifologiyasında yaradılış prosesi. Müharibə və fırtına tanrısı İndra Yer və Göyün oğlu kimi. Onun əjdaha Vritra üzərində qələbəsi. Sat-varlıq aləmi, allahlar və insanların məskəni, Asat isə o dünyanı təmsil edən məskən kimi.

«Puruşi qurbanı». Hind mifoloji düşüncəsində kainatın tanrıların qurban kəsdikləri ilk insan – Puruşinin bədənindən yaranması.

Qədim hind əsatirlərində allah Şiva. Onun rəqsində dünyanın yaradılması, inkişafı və məhv olmasının əksi.

«Ramayana» («Rama haqqında hekayət») epik poemasında Rama Çandra tanrı Vişnunun təcəssümlərindən biri kimi. Mədəni qəhrəman Rama qüdrətli döyüşçü, səyyah, yeni mədəniyyətin yaradıcısı və təbliğatçısı kimi.

Hinduizm mifoloji sistemində müqəddəs heyvanlar kultu (inək, meymun, gürzə, Haruda quşu və s.). Çaylara etiqad hinduizmə daxil olan ən qədim kultlardan biri kimi

Sanskritdə ilahi qüvvə – allahın «deva» sözü ilə ifadəsi. Antropomorf cizgilərin hind tanrılarında əksi. Hind ənənəsində allahların 3 qrupa bölünməsi (Vasu, aditya, rudra). Allahların anası hesab olunan qadın ilahəsi Aditi («azad, asılı olmayan hududsuz» anlamında).

Hind allahları panteonunda Brəhmənin yeri. Brəhmə dünyanın və insanların yaradıcısı kimi. Brəhmənin epitetlərinin onun yaratmaq aksiyası ilə bağlılığı. Brəhmə allahların aparıcı triadasında (Şiva və Vişnu ilə birlikdə).

Hinduizm dini-mifoloji sistemində Od allahı Aqni. Aqninin epitetləri. Hind mifoloji düşüncəsində od allahlara qurbanı çatdıran əsas vasitə kimi. İldırım və külək tanrısı İndra. İndranın epitetləri. İndra ilə əlaqədar miflər.

Hinduizm dini mifoloji sistemində Vayu (Vata/Vatri), Surya, Dakşa, Şiva, Vişnu, Lakşmi və s. allahlar.

Vişnunun 10 avatarı – təcəssümü. Krişna Vişnunun təcəssümlərinin ən əhəmiyyətlisi kimi. Krişnanın möcüzələri. Krişnanın naxırçı qızlarına məhəbbəti ədəbiyyatda allahın insanlara məhəbbət kimi simvolizə edilməsi [5], [7], [13, IV k.], [18], [34], [35], [40].

## 8. Çin mifologiyası. Əjdaha kultu

Çin mifologiyasının mənbələri və tədqiqatçıları. Çinin ən qədim tarixi hadisələrinin mif və əfsanəvi rəvayətlərdə öz əksini tapması. Çinin allahlar panteonu. Çin mifoloji düşüncəsində ali hakim Şan-di, Yan-di (alovun hakimi), Çi-di (qırmızı hakim – günəş allahı), Quan-di (müharibə və sərvət allahı) və s. Ümumçin mahiyyətli allahlar panteonuna əsas dinlərin (Konfutsi, Budda və s.) təsiri.

Çində mövcud olan ən qədim dini təsəvvürlər içərisində totemizmin yeri. İn, Çjou, Sin, Sya sülalərinin əsasında totemistik təsəvvürlər. Qədim Çində animizm, ölülər kultu. Çjou dövründə əcdadlar kultunun əhəmiyyəti. Hər bir adamın 2 ruha malik olması (maddi ruh – Po və mənəvi ruh - Xun).

Yaradılış mifləri. Şan-di dünyanın yaradıcısı kimi. Səmanın və yerin bir-birindən ayrılması haqqında miflər. İnlərin təsəvvüründə Şan-di təkcə baş allah mövqeyində deyil, həm də bütün axirət dünyası qüvvələrinin başçısı, inlərin yaxın qohumu, onların əfsanəvi əcdadı və hamisi kimi.

Çin mifoloji sistemində Əjdaha kultu. Çin xalq inancına görə əjdaha su stixiyasının hakimi kimi insanlara nəmişlik bəxş etməsi. Sya qəbiləsinin totemi kimi. Çin mifologiyasında əjdahaların 4 tipi.

Çin mifologiyasında 4 müqəddəs canlı (əjdaha bahar və şərqin, feniks yay və cənubun, pələng payız və qərbin, tısbağa qış və şimalın simvolu kimi). At kultu ilə bağlı təsəvvürlər. Səma və sudan doğulmuş atlar.

Pan-qu səma və yeri bir-birindən ayıran ilkin əcdad kimi. Pan-qu haqqında miflər. Kainatın ilk insan Pan-qunun bədənindən yaradılması.

Çin mifoloji sistemində günəş miflərinin yeri. Çjou kitablarında məşhur oxatan İ (Xou İ) dünyanı və insanları yandırıcı günəşlərdən xilas etməsi.

Daşqın haqqında Çin mifləri. Qun və oğlu Yuy selin, daşqının qarşısını alan ilahi varlıqlar kimi. Çin daşqını ilə Yaxın Şərq xalqlarının daşqınla bağlı mifləri arasındakı fərqlər.

İlk əcdadlar haqqında miflər. Fu-si və Nyuy-va dünya daşqınından xilas olmuş ilk insan cütü kimi. Fu-si və Nyuy-va mədəni qəhrəmanlar kimi zooantropomorfik simada təsvir olunması. Nyuy-vaya nikah ilahəsi kimi etiqad edilməsi [5], [7], [9], [10], [13, V k.], [15], [18], [24], [25], [34], [43].

## 9. Fars mifologiyası. «Avesta»

Fars miflərinin toplandığı yazılı mənbələr «Avesta», «Bundahşn» («Yaradılışın əsası»), «Dinkert» («İnam əməlləri»), Manixey əlyazmaları. «Avesta» zərdüştilik dini görüşlərini əks etdirən əsas mənbə kimi.

Zərdüşt (Zaratuştra, Zoroastr) tarixi və ya əfsanəvi şəxsiyyət kimi. Zərdüşt adının etimoloji izahı. Zərdüştün dövrü və vətəni ilə bağlı mübahisələr (Krestensen, M.Boys və b.).

«Avesta»nın hissələri. «Yəsna»nın tərkibinə daxil olan Qatlar Avestanın ən qədim hissəsi kimi. «Avesta»nın dili haqqında mülahizələr.

«Avesta»da xeyir-şər qarşılaşması. Dialist dünyagörüşünün formalaşması. Atəşpərəsliyin baş tanrısı Ahura-Məzda («Müdrik yaradıcı») xeyir və işıq allahı kimi.[1]

---

[1] ***Qeyd:*** «Avesta»nın fars mənbələrində özünə geniş yer tapması, zəmanəmizə qədim pəhləvi dilində gəlib çatması, eləcə də İranda atəşpərəstliyin dövlət dini kimi qəbul edilərək uzun müddət yaşaması və s. nəzərə alaraq onun fars mifologiyası tərkibində öyrənilməsi daha məqsədəuyğundur.

Ameşa Spentada 6 müqəddəs ruh: Bohuman («Xoşbəxtlik gətirən fikir»), Aşa Vahişta («Ən böyük həqiqət»), Hşatra Varya («Arzuların hökmranlığı»), Spenta Armait («Müqəddəs mömünlük»), Harvatat («Bütövlük»), Amertat («Ölümsüzlük»).

«Avesta»da yazatların yeri (Mitr, Atər, Ardvi (Su)r-Anahid (Nahidə), Tiştriya, Hauma və s. «Avesta»da təbiət qüvvələrini hərəkətə gətirən 5 müqəddəs od. Fravaşlar // Fravarti – həqiqət dünyasının qoruyucu əcdad ruhları kimi.

«Avesta»da Ahura Məzda // Hörmüz göyün, yerin, suyun, bitkilərin, heyvanlar aləminin, ilk öküzün və ilk insanın yaradıcısı kimi. Ahura Məzda tərəfindən dünyanın 360 gündə yaranması.

Anhro Manyu («Şər ruh») – həqiqət və dünyadakı bütün uğurların düşməni, qaranlıq aləmin, soyuğun, zülmətin təmsilçisi kimi. Anhro Manyu // Əhrimanköməkçilərinin dağıdıcı qüvvəyə malik olması .

«**Avesta»da etnoqonik miflər**. Qaya Martan / Qayamart (öləri canlı) ilk insan kimi. Qayamart ölərkən onun bədəninin müxtəlif üzvlərindən təbiət obyektlərinin yaranması. Vivahvantın oğlu Yima «qızıl əsr» dövrünün ilk padşahı, ilk ölən, ilk əcdad, mədəni qəhrəman və ölülər səltənətinin hökmdarı kimi. Ümumdünya daşqını ilə bağlı mifdə Yima insanları kosmik qəzadan xilas edən mədəni qəhrəman statusunda.

«Avesta»da təqvim mifləri. «Avesta»da esxatoloji miflər (cənnət, cəhənnəm, ölülərin mühakiməsi, çinvat//candvar) və s. Klassik fars ədəbiyyatında («Şahnamə») əsatiri qəhrəmanlar: Zal, Rüstəm, Söhrab, İsfəndiyar və s. M.Kazımbəy fars əsatiri haqqında [9], [10], [13, III k.], [34], [62], [76].

## 10. Yunan mifologiyası. Roma mifləri

Yunan mifologiyasının mənbələri və tədqiqatçıları haqqında (Hesiodun «Teoqoniya», Homerin «İliada» və «Odisseya» əsərləri və s.).

Yunan yaradılış və törəniş mifləri. Yunan mifoloji düşüncəsində dünyanın xaosdan yaranması. Dünyanın mərkəzi kimi Olimp dağı.

Kronosun oğlu Zevs yunan mifologiyasında allahların və insanların atası, Olimp allahlar ailəsinin başçısı kimi. Zevs adının etimoloji izahı. Zevsin epitetləri. Zevs müxtəlif şücaətlər göstərən çoxsaylı qəhrəmanların atası kimi (Herakl, Persey, Sarpedon və s.) Zevs və qanuni nikahın qoruyucusu ilahə Hera. Zevs insanlara (Sizif, Tantal və başqaları) cəza verən rolunda.

Yunan allahları panteonu (Poseydon, Aid, Apollon, Artemida, Afina Pallada, Afrodita, Hermes, Dionis, Demetra, Hefest və başqaları).

**Allahlarla insanların qarşılaşması**. İnsanların taleyi və Prometeyin Zevs ilə rəqabəti. Prometeyin fədakarlığı – odun oğurlanması. Prometey – mədəni qəhrəman kimi yunan mifoloji düşüncəsində yeri.

İlk insanların yaradılışı ilə bağlı miflər. Prometeyin köməkliyilə dünya daşqınından – kosmik qəzadan xilas olan ilk insan cütü (Devkalion və Pirra). Prometey və Epimetey.

Yunan mifologiyasında qəhrəmanlar (Axill, Odissey, Persey, Tesey, Herakl və s.). Ezon çarının oğlu Yazonun başçılığı altında arqonavtların dəniz səyahətləri. Qızıl dərinin oğurlanması. Heraklın 12 sücaəti. Hiyləgər və başıbəlalı Odissey. Troya uğrunda döyüş. Paris və Yelena. Axillin qəzəbi və ölümü.

Narsis və özünəvurğunluq. Yunan mifləri və Qafqaz. Yunan miflərinin yazılı ədəbiyyatda inikası.

Roma allahları (Yupiter, Yunona, Mars, Saturn, Venera, Minerva və s.). Romanın salınması haqqında təsəvvürlər. Romul və Remin dişi canavar tərəfindən böyüdülməsi. Qədim Romanın 7 əsatiri hökmdarı [5], [7], [13, VII k.], [18], [31], [32], [34], [49], [70].

## 11. Alman-Skandinav mifologiyası

Alman-Skandinav mifologiyasının mənbələri və tədqiqatçıları. «Böyük Edda», «Kiçik Edda», «Beovulf», «Nibelunqlar haqqında nəğmə» və s. yalnız Skandinav xalqlarının deyil, alman dillərində danışan bütün xalqların qiymətli mədəni tarixi və bədii irsi kimi.

Alman-Skandinav xalqlarının allahlar panteonu. Skandinav əsatirlərində Odin – dünyanın başçısı, qədim qəbilə-tayfa başçısının bütün səciyyəvi xüsusiyyətlərini özündə birləşdirən ilk kralların nümunəsi kimi. Skandinav mifologiyasında baş allah Odin və alman Voden //Vodan arasında uyğunluqlar. Skandinav mifologiyasında baş allahın çoxsaylı adları və ləqəbləri («Alfyodr» - hamının atası», «Xarberd» - «çal saqqal», «İqq» - «qorxunc» və s.).

Asqard qədim Skandinav mifoloji düşüncəsində allahların iqamətgahı kimi. Aslar Vanlara (yer allahı) qarşı duran Skandinav səma allahları rolunda.

Alman-Skandinav allahlar panteonunda Yer ilahəsinin oğlu Tor//Donar tufan, fırtına, məhsuldarlıq allahı kimi. Torun 3 sehrli əşyası. Asqard allahları içərisində Nyord, Tir, Vali, Loki və s.-nin yeri. Friqq  Skandinav allahlar panteonunda baş ilahə kimi.

Qinnunqaqap («dünya qədər sonsuzluq») – ilkin xaosdan bütün yaradıcı qüvvələrin meydana gəlməsi. İqqdrasil Skandinav kosmoqonik düşüncəsində yuxarı və aşağı dünyaları birləşdirən dünya ağacı rolunda. İqqdrasil Odinin adlarından biri kimi. Skandinav mifologiyasında ilk insan cütü – Ask və Embla.

«Böyük Edda» əsərində Baldrın ölümü mifi.

Alman-Skandinav mifologiyasında bədbəxtlik timsalı olan 2 qorxunc təbiət hadisəsinin – şaxta və odun rəmzi olan Qrimtursen nəhəngləri haqqında əsatirlər. Əjdaha və təbiətin müxtəlif fövqəl qüvvələri ilə mübarizə aparan qəhrəmanlar (Beovulf, Siqmund, Siqurd və s.).

Alman-Skandinav qəhrəmanlıq eposunda məşhur hun hökmdarı Attila (İsland dilində Atli, almanca Etsel, macarca

Atsel). «Tanrının qırmancı» ləqəbli Attila ilə bağlı qədim alman-skandinav eposunda iki süjet [5], [9], [13,VIII k.], [18], [34], [36], [72], [79].

## 12. Slavyan mifologiyası. Allahlar panteonu

Qədim slavyanların (praslavyan) mifoloji təsəvvürlərinin formalaşması dövrü. Slavyan mifologiyasının əsas mənbələri haqqında.

Slavyan mifologiyasında iki praslavyan tanrısı – Perun və Veles. Tufan, ildırım tanrısı Perunun göylərdə məskən tutaraq, yerdə, torpaqda yaşayan ilahi sifətli rəqibi Velesi izləməsi. Perunun hind-Avropa ənənəsində hərbi funksiya ilə bağlılığı. Perunun əsas silahı. Perun sözünün mənşəyi haqqında. Praslavyan tanrılarının hərbi, təsərrüfat-təbiət funksiyalarını özündə təcəssüm etdirməsi.

Veles//Volos - mal-qara, var-dövlət, ev heyvanlarının himayəçisi rolunda. Sosial aspektdə Veles bütün Rusun, Perun isə knyaz drujinasının tanrısı kimi. Aşağı səviyyədə duran tanrılar. Slavyan mifologiyasında ilkin və köklü qarşıdurmalar: xoşbəxtlik//bədbəxtlik, ölüm//həyat, tək//cüt, sağ//sol, quru//yaş və s.

«Boq» sözünün etimoloji izahı. Geneoloji qəhrəmanlar (Kiv, Çex, Xoriv, Krak və s.). Slavyan mifoloji mətnlərində təbiətin əcaib varlıqları. Slavyan mifoloji düşüncəsində Dünya ağacının yeri.

Dajboq (günəş tanrısı), Svaroq (od tanrısı), Striboq (külək tanrısı), Beloboq (qismət, uğur tanrısı) və s. tanrıların slavyan allahlar panteonunda yeri. Mokoş-qədim rus panteonunda yeganə qadın ilahə kimi. Tipoloji cəhətdən ilahə Mokoş insan talelər i əyirən yunan moyrları, alman nornları ilə yaxınlığı [9], [13, IX k.], [18], [34], [38], [42], [74].

## 13. Türk mifologiyası. Türk dini-mifoloji sistemində tanrının yeri. Kultlar (əcdad, dağ, ağac, Boz qurd və s.)

Qədim türk mifologiyasının qaynaqları və tədqiqatçıları. Türklər bəşər sivilizasiyasında öz sözü, öz izi və əməli olan qədim xalqlardan biri kimi.

Qədim türk mifologiyasının fraqmentləri VIII-X əsr runik mətnlərində, VI-X əsr Bizans, Çin, ərəb və fars mənbələrində. Qədim türk dini-mifoloji sisteminin strukturu haqqında bəzi mülahizələr (Y.P.Ru, L.İ.Potapov, S.Q.Klyaştornı və b.).

Tanrıçılıq qədim türklərdə geniş yayılmış dini-mifoloji sistem kimi. Türk dillərinin müxtəlif fonetik variantlarında (azər. Tanrı, qazax. Tenri, türkmən. Tanrı, qırğız. Tenir, başqırd. Tenre, uyğur. Tenri, özbək. Tanqri, altay. Tenqri, xakas. Tiqir, yakut. Tanqara) mövcud olan Tanrı göy və onun hakimi mənasında. Tanrının atributları (göy, yaradıcı, hamı, insan taleyini müəyyənləşdirən, cəzalandırıcı, kişi başlanğıcı və s.). Türkün Tanrıya yaxın olması, tanrının sevimli olması ideyası yetkin türk şüurunun məhsulu kimi. Yuxarı dünyanın hakimi Ülgen, yeraltı dünyanın hakimi Erlik, uşaq və qadınların hamisi Umay, Yer-su və s. Göy tanrının yüksək dərəcəli hami ruhları kimi.

Türk xalqlarında Göy Tenqri dünyanın yaradıcısı kimi. Türk mifoloji sistemində Altay yaradılış dastanlarının yeri. Orxon -Yenisey abidələrində dünyanın yaranması haqqında təsəvvürlər. «Oğuz kağan» dastanında Oğuz nizamlı dünya modelinin yaradıcısı kimi.

**Etnoqonik miflər.** Türk xalqlarının mifoloji düşüncəsində ilk insan və ya insan cütünün yalnız Ülgen, Erlik kimi tanrılarla deyil, həmçinin təbiətin mühüm ünsürləri ilə bağlı olması.

Tufan, ümumdünya daşqını ilə bağlı miflər. Qədim yazılı abidələrdə (Orxon abidələri) kosmik qəza.

Esxatoloji miflərdə dünya və onun elementlərinin məhvi, kosmosun xaotikləşməsi. Dünyanın sonu ilə bağlı Telengit və Teleut əsatirləri.

Hami ruhlar haqqında miflər. Şaman təsəvvürlərində yeraltı ruhların körmös, göy ruhların Quday (Kuday), yerüstü ruhların Yer-Su və ya Altay adlandırılması. İnsana münasibətdə ruhların xeyirxah və şər ruhlara bölünməsi.

Qədim türklərin inanc sistemində Atalar- əcdadlar kultu. İlk əcdadların zooantropomorf təbiətə malik olması. Qədim türklərdə dağ kultu. Türk xalqlarının Bodın – İnli, Altay, Ağ qaya, Alaş və s. dağlara tapınması. Qədim türk düşüncəsində dağın vətən, torpaq, yaşadıqları ərazinin hamisi kimi təsəvvür edilməsi (Ötüken).

Türk xalqlarının əksəriyyəti tapındıqları dağları ulu ana, ulu ata hesab etmələri. Qədim dövrlərdən başlayaraq bütün dağ zirvələrinin sahibi Altay ruhu // Altay idi // izzi hesab olunması.

Ağac kultunun türk mədəniyyətində yeri. Türk düşüncəsi yaradılışı, xəlq olunmağı izah edərkən ağacı bu hadisənin başlıca motivi kimi göstərməsi. Dünyanın mərkəzi hesab olunan ağacın öz kökləri və budaqları ilə yerlə göyü birləşdirməsi. Qədim türk xalqlarının ənənəvi dünya mənzərəsində ağac insanların, qəbilələrin, xalqların ulu babalarının anası kimi özünü göstərməsi.

Türk mifik düşüncəsində ağac Tanrının yer üzərindəki kölgəsi, simvolu kimi.

Türk mədəniyyət sistemində Boz qurdun funksiyaları: xilaskar, əcdad, hami, yol göstərən və s. Göytürklərlə əlaqəli olan Boz qurd əfsanələri. Oğuznamə motivlərinin arxaik qatında duran Boz qurd (Gök Börü) türk mifoloji sistemində əsas anlayış kimi. Boz qurd mədəni qəhrəman, əcdad-xilaskar, iki dünyanı birləşdirən mediator, ritual-mifoloji səciyyəli hamı ruh, döyüş və qəhrəmanlıq simvolu kimi. Tarix boyunca düşmənlərin türk əsgərlərini qurda bənzətməsi. Türklərin «qurdla qiyamətə qalmaq» deyiminin semantik cəhətdən yozumu.

Qədim türklərdə at kultu. Türk mifoloji düşüncəsində qəhrəmanın atının göydən gəlməsi ilə bağlı təsəvvürlər. Su, dərya ilə əlaqəli atlar. Türk xalqlarının folkloru və təsəvvürlərində qanadlı atlar – yel atları. Qanadlı at qədim obraz kimi skif, yunan mifologiyasında mövcudluğu. İlkin kosmoloji düşüncədə atın

mediator rolu [4], [8], [9], [11], [13, VI k.], [17], [18], [20], [21], [28], [34], [60], [66].

## 14. Azərbaycan mifoloji mətnlərinin toplanma, nəşr və tədqiq tarixindən

Türk mifoloji şüurunun tərkib hissəsi olan Azərbaycan mifologiyasının və mifoloji mətnlərinin təsnifi prinsiplərinin öyrənilməsi.

M.Kazımbəyin «Firdovsi əsərində fars əsatiri» əsəri mifologiya sahəsində azərbaycanlı tədqiqatçı-alim tərəfindən tədqiq olunmuş ilk elmi araşdırma kimi.

Y.V.Çəmənzəminli Azərbaycan folkloru və mifologiyası haqqında dəyərli fikirlər söyləmiş bir araşdırıcı kimi («Azərbaycan nağıllarının əhval-ruhiyyəsi», «Azərbaycanda Zərdüşt adətləri», «Nağılları necə toplamalı», «Nağıllarımız barəsində bir-iki söz» və s.). Y.V.Çəmənzəminlinin «Qızlar bulağı» əsərində mifoloji motiv.

Folklor sahəsində görkəmli nəzəriyyəçi-alim kimi tanınan M.Təhmasibin tədqiqatlarında Azərbaycan folklorunun mifoloji motivlərinin öyrənilməsi. «Azərbaycan xalq ədəbiyyatında div surəti», «Əfsanəvi quşlar» məqalələri, Tədqiqatçının Xıdır, Təpəgöz, Dədə Qorqud surətləri, buta, aşıq və s. anlayışlar barədə irəli sürdüyü fikirlər

Azərbaycan mifşünaslığında özündən sonra yeni bir məktəbin əsasını qoymuş M.Seyidovun elmi axtarışları («Azərbaycan mifik təfəkkürünün qaynaqları», «Azərbaycan xalqının soykökünü düşünərkən», «Qam-şaman və onun qaynaqlarına ümumi baxış» və s.).

Mifologiyamızın araşdırılmasında AMEA-nın m.ü., professor A.Nəbiyevin xidmətləri («Azerbaydjanskiye skazki, mifı i leqendı», milli miflər toplusundan ibarət «Sehirli sünbüllər» və s.).

«Azərbaycan mifoloji mətnləri» kitabı Azərbaycan miflərinin toplu şəklində nəşr sahəsində ilk təşəbbüs kimi.

A.Şükürovun dünya xalqlarının mifoloji düşüncəsini öyrənən «Mifologiya» kitabları.

C.Bəydilinin (Məmmədov) ensiklopedik lüğət səciyyəsi daşıyan «Türk mifoloji sözlüyü» kitabı. Türk xalqlarının mifik-dini dünyagörüşü ilə bağlanan və mifoloji dünya mənzərəsini əks etdirən 400-dən artıq əsatiri varlıq adı, deyim və ümuminəzəri anlayışın simvolikası, yaranma yolları və semantik yozumunun müəllif tərəfindən kitabda ilk dəfə hərtərəfli araşdırılması. Onun «Türk mifoloji obrazlar sistemi: strukturu və funksiya» kitabında türk etnik-mədəni sistemi kontekstində mifoloji obrazların funksional semantikası, türk təktanrıçılığı (Göy Tanrı dini) və Şaman kosmologiyası ilə bağlı obrazların simvolikası təbiət və əcdad kultları çevrəsində təşəkkül tapmış türk mifoloji obrazları və s.-nin öyrənilməsi.

Füzuli Bayatın «Mifologiyaya giriş» (2005), 2 hissəli «Türk mifoloji sistemi» (2007) kitablarında mif və nağıl, mif və əfsanə, din və ritual, mifoloji Yer Ana kompleksi, doğum və ailə qoruyucusu Umay, od, ağac, dağ və s. kultların türk mifoloji düşüncəsində yerinin müəyyənləşdirilməsi.

Ramazan Qafarlının 2002-ci ildə «Mif, əfsanə, nağıl və epos» (epik ənənədə janrlararası əlaqə), 2004-cü ildə nəşr olunmuş «Azərbaycan türklərinin mifologiyası» (bərpa, genezis) və s. kitabları. «Azərbaycan türklərinin mifologiyası» kitabında mifoloji düşüncənin tədqiq tarixi və poetik strukturu.

Seyfəddin Rzasoyun «Oğuz mifi və Oğuznamə eposu» (2007), «Oğuz mifologiyası» (2009)və s. kitablarında Oğuz mifologiyasının ritual modeli, ritualın strukturu, Oğuz mifologiyasında xaos və onun paradiqmaları və s. problemlərə aydınlıq gətirilməsi.

Mifoloji araşdırmalar sahəsində N.Mehdi, R.Bədəlov, B.Abdulla, R.Əliyev, R. Kamal, A.Xəlil və başqalarının fəaliyyəti haqqında [1], [3], [4], [7], [11], [12], [14], [43], [48], [52], [55], [58], [59], [60], [63], [66].

## 15. Azərbaycan mifoloji görüşlərinin qaynaqları və miflərimizin təsnifatı

Azərbaycan mifoloji görüşlərinin ilkin qaynaqları. Azərbaycan mifoloji mətnlərinin təsnifi (A.Nəbiyev, A.Şükürov, A.Acalov və b.).

İslam dininin təsiri altında formalaşan miflər. Müsəlman kosmoqonik görüşlərinə görə Allah aşağı-yer və yuxarı-göyü yaradan yeganə yaradıcı qüvvə kimi.

Göy öküz türk xalqlarının mifoloji mətnlərində bir tərəfdən tanrının yaratdığı yerin simvolu kimi, digər tərəfdən isə öküz mifoloji Yer Ananın atributu kimi. Miflər toplusundan ibarət olan «Sehirli sünbüllər» kitabında Boz öküz dünyanın yaradıcısı kimi.

Dünyanın sudan və ya torpaqdan yaranması ilə bağlı Azərbaycan mifləri. Günəş, ay, ulduz və s. haqqında kosmoqonik miflər. Azərbaycan və türk xalqlarının miflərində Günəş artımın, yaradıcılığın başlanğıcı kimi qəbul edildiyindən qadın obrazında təsəvvür olunması. Azərbaycan mifoloji mətnlərində Günəş ilə Ay ər-arvad, bacı-qardaş, ana-oğul, iki sevgili kimi təsəvvür olunması.

**Etnoqonik miflər.** Türk xalqlarının mifoloji düşüncəsində ilk insan və ya insan cütünün yalnız tanrı ilə deyil, həmçinin təbiətin mühüm ünsürləri ilə bağlılığı.

İslam mifologiyasında ilk insan – Adəmin vahid tanrı tərəfindən gildən, sudan və laxtalanmış qandın yoğrulub yaradılması. Azərbaycan miflərindən birində Boz öküz və qoz ağacı-dünya ağacı ilk insan və insan cütünün yaradıcısı kimi (Oğuz və Fatı).

İslam mifologiyasında Adəm-bəşəriyyətin atası, ilk peyğəmbər kimi.

Azərbaycan mifoloji mətnlərində Koroğlu ilkin əcdad, mədəni qəhrəman statusunda. Koroğlunun mifik aləmlə bağlılığı.

**Təqvim mifləri.** Etnosun zaman kateqoriyasına münasibətinin təqvim miflərində ifadəsi. Təqvim-keçən vaxtın hesablanma sistemi kimi.

Azərbaycan təqvim miflərində Novruz bayramının yeri. Azərbaycan xalqının mifoloji görüşlərində təqvim miflərinin formalaşmasının 12 heyvanlı Türk təqviminin təsiri altında getməsi. Novruz bayramı, Boz ay, ilaxır çərşənbələr və s. haqqında Azərbaycan mifoloji mətnləri [3], [6], [8], [11], [43], [48], [59], [63], [65].

## Tədris texnologiyaları, təlimin interaktiv formaları

Bu kursun qarşısında qoyulan məqsədlərə çatmaq üçün ənənəvi metodlarla yanaşı, yeni tədris üsullarından da istifadə edilməlidir. Müəllimin mühazirə mətnləri, elmi ədəbiyyat (məqalələr, monoqrafiyalar, dissertasiyalar və s.), Azərbaycan və dünya xalqlarının mif mətnlərindən ibarət toplular (antologiyalar, külliyyatlar və s.) əsasında təlim ənənəvi üsullardan sayılır. Hər mövzu ilə bağlı slaydların hazırlanması, bunlarda ayrı-ayrı tədqiqatçıların fotolarının, araşdırmaların üz qabığının, titul səhifəsinin göstərilməsi, eləcə də miflərin təsnifatı, hər bir mif bölümünün özünəməxsus xüsusiyyətlərini, dünyanın 10-dan artıq xalqının mifologiyasının əsas miflərinin sxemini əks etdirən örnəklər üzərində iş aparılması dərsin keyfiyyətinə müsbət təsirə malik metodlardandır.

## Tədris resursları

Tədris prosesində müəyyən resursların cəlb olunması məqsədəuyğundur. Buraya dünya xalqlarının mifologiyası haqqında televiziya verilişlərinin çəkilmiş olduğu disklər, slaydların nümayişi üçün lazım olan texniki avadanlıqlar daxildir.

## Sərbəst (fərdi) işlərin mövzuları

1. Mif və mifologiya haqqında ümumi məlumat. Miflərin təsnifi.
2. Şumer mifoloji düşüncəsində 3 əsas mif.
3. Misir mifoloji düşüncəsində Atim – Ra ilə bağlı miflər.

4. Yəhudi mifoloji düşüncəsində Yəhva baş tanrı kimi.
5. Hind mifologiyasında allahlar panteonu.
6. Çin mifologiyasında Əjdaha kultu.
7. Fars mifologiyasında Ahura Məzda dünyanın yaradıcısı kimi.
8. Yunan mifologiyasında qəhrəmanlar /Axill, Odissey, Persey, Tesey, Herakl və başqaları/.
9. Skandinav mifologiyasında baş allah Odin. Slvyan mifologiyasında 2 proslavyan tanrısı – Perun və Veles// Volos.
10. Türk mifoloji düşüncəsində kultlar /dağ, ağac, Boz qurd və s./ Azərbaycan mifoloji mətnlərinin təsnifi.

## Ədəbiyyat:

**Əsas:**


1. Acaloğlu A. Mifologiya /Azərbaycan ədəbiyyatı tarixi. Altı cilddə. I cild. Bakı: Elm, 2004, s.37-66
2. Asiya xalqlarının nağıl və əfsanələri. Bakı: Öndər nəşriyyatı, 2005, 280 s.
3. Azərbaycan mifoloji mətnləri/ Tərtib edəni, ön söz və şərhlərin müəllifi A.Acalov, Bakı: Elm, 1988, 196 s.
4. Bəydili C. Türk mifoloji sözlüyü. Bakı: Elm, 2003, 418 s.
5. Dünya xalqlarının mifləri və əfsanələri. /Tərtib edən A.Məmmədov. Bakı: Çaşıoğlu, 2004, 345 s.
6. Əsatirlər, əfsanə və rəvayətlər. Bakı: Şərq-Qərb, 2005, 304 s.
7. Qafarlı R.O. Folklorşünaslıq və mifologiya məsələləri /Nəzəri mülahizələr və metodik göstərişlər. Bakı: ADPU, 2002, 164 s.
8. Məmmədov M.M. Azərbaycan mifoloji mətnlərinin təsnifi // «Dil və ədəbiyyat» jurnalı, Bakı, 1997, №3, s.94-97
9. Məmmədov M.M. Mifologiya / Ali filoloji təhsilin bakalavr pilləsi üçün fənn proqrammı. Bakı: BDU nəşri, 2003, 47 s.
10. Nağıyev C.Q. Qədim Şərq ədəbiyyatı tarixi. Bakı: Asiya, 2004, 545 s.
11. Seyidov M. M. Azərbaycan xalqının soykökünü düşünərkən. Bakı: Yazıçı, 1989, 496 s.

12. Seyidov M.M. Azərbaycan mifik görüşlərinin qaynaqları. Bakı: Yazıçı, 1983, 326 s.
13. Şükürov A. Mifologiya. I-IX kitablar. Bakı: Elm, 1995-2006
14. Şükürov A. Azərbaycan mifologiyası (tədqiq tarixindən). Bakı: Çıraq, 200, 72 s.
15. Yusifov Y.B. Qədim Şərq tarixi. /Dərslik. Bakı: Bakı Universiteti nəşriyyatı, 1992, 487 s.
16. Bayat F. Mitolojiye giriş. Çorum: Kara M., 2005, 150 s.
17. Beydili C. Türk mitolojisi. Ansiklopedik sözlük/ Çeviren Eren Ercan. Ankara: Yurt Kitap-Yayın, 2005, 637 s.
18. Böyük Dünya Mitoloji ansiklopedisi/ Arthur Cotterell, Rachel Storm. İstanbul: Alfa yayınları, 2011, 512 s.
19. Kramer S.N. Şümer mitolojisi / Çeviren Hamide Koyukan. İstanbul: Kabalcı Yayınevi, 2001, 220 s.
20. Uraz M. Türk mitolojisi. İstanbul: Hüsnüabat, 1967.
21. Ru Y.P. Eski türk mitolojisi / Çeviri Musa Yaşar Sağlam. Ankara: Bilge Su, 2012, 149 s.
22. Антонова Е.В. Обряды и верования первобытных земледельцев Востока. М.: Наука, 1990, 218 с.
23. Белицкий М. Забытый мир шумеров/ Пер. с польск. Послесл. И.С.Ключкова. М.: Главная редакция восточной литературы издательства «Наука», 1980, 397 с.
24. Биррел А. Китайские мифы /Пер. с. англ. М. Звонарева. М.: ФАИР-ПРЕСС, 2005, 128 с.
25. Бодде Д. Мифы Древнего Китая / Мифологии Древнего мира (Пер. с. англ). М.: Наука, 1977.
26. Дьяконов И.М. Архаические мифы Востока и Запада. М.: Наука, 1990, 247 с.
27. Евсюков В.В. Мифы о вселенной. Новосибирск: Наука, 1988, 177 с.
28. Кляшторный С.Г. Мифологические сюжеты в древнетюркских памятниках. ТС-1977. М., 1981, с. 117-139.
29. Крастовцев М.А. Религия древнего Египта. М.: Наука, 1976, 336 с.

30. Крамер С.Н. История начинается в Шумере. М.: Наука, 1991, 256 с.
31. Кун Н.А. Легенды и мифы Древней Греции. М.: Наука, 2000, 464 с.
32. Легенды и сказания Древней Греции и Древнего Рима / Ред. А.А.Нейхардт. М.: Правда, 1990, 576 с.
33. Матье М. Э. Древнеегипетские мифы. М.: Издательство АН СССР, 1956, 173 с.
34. Мифы народов мира. Энциклопедия в двух томах. / Гл. ред. Токарев С.А. М.:Советская энциклопедия, 1991-1992.
35. Невелева С.Л. Мифология древнеиндийского эпоса (Пантеон). М.: Наука, 1975, 118 с.
36. Петрухин В.Я. Мифы древней Скандинавии. М.: ООО «Издательство Астрель»; ООО «Издательство АСТ», 2003, 464 с.
37. Рак И.В. Легенд и мифы Древнего Египта. Санкт-Петербург: «Летний Сад», 1998, 192 с.
38. Соболев А.Н. Мифология славян. Загробный мир по древнерусским представлениям / Литературно-исторический опыт исследования древнерусского народного миросозерцания. СПб.: Издательство «Лань», 1999, 272 с.
39. Стеблева И.В. К реконструкции древнетюркской религиозно-мифологической системы. ТС-1971, М., 1972, с. 213-226.
40. Темкин Э.Н., Эрман В.Г.Мифы древней Индии. М.: Наука, 1982, 270 с.
41. Хук С.Г. Мифология Ближнего Востока. М.: Наука, 1991, 184 с.
42. Уорнер Э. Русские мифы / Пер. с.англ. М. Звонарева. М.: «Издательство ФАИР», 2008, 112 с.
43. Юань Кэ. Мифы древнего Китая. М.: Наука, 1987, 496 с.

**Əlavə:**

44. Bayat F. Oğuz epik ənənəsi və «Oğuz Kağan» dastanı. Bakı: Sabah, 1993, 194 s.

45. Bəydili C. (Məmmədov) Türk mifoloji obrazlar sistemi: strukturu və funksiya /Monoqrafiya. Bakı: Mütərcim, 2007, 272 s.
46. Cəfərli M. Dastan və mif. Bakı: Elm, 2001, 188 s.
47. Elladanın qəhrəmanları.Bakı: Öndər nəşriyyat, 2004, 152 s.
48. Əlizadə R. Azərbaycan folklorunda təbiət kultları. Bakı: Nurlan, 2008, 176 s.
49. Homer. Odisseya. Bakı: Şərq-Qərb, 2009, 376 s.
50. İncil. Stokholm: Bibliya Tərcümə İnstitutu, 1991, 421 s.
51. Kazımoğlu M. Gülüşün arxaik kökləri. Bakı: Elm, 2005, 186 s.
52. Qafarlı R.O. Mif və nağıl /Epik ənənədə janrlararası əlaqə. Bakı: N.Tusi adına ADPU-nun nəşri, 1999, 448 s.
53. Məmmədov M.M. İslam dini və türk tanrıçılığında yaradılış / Filologiyanın aktual problemləri. Bakı: BDU nəşri, 2006, s.93-99.
54. Mirzəyev M.N. Qədim Şərq tarixi /Metodik vəsait. Bakı: BDU, 2001, 119 s .
55. Nəbiyev A. Azərbaycan mifologiyası/ Azərbaycan xalq ədəbiyyatı. I cild, Bakı: «Turan», 2002, s. 129-216.
56. Novruzov T. Qədim dünya ədəbiyyatı tarixi / Ali məktəb tələbələri üçün dərslik. Bakı: ADPU-nun nəşri, 2003, 577 s.
57. Rzasoy S. Oğuz mifi və Oğuznamə eposu. Bakı: Nurlan, 2007, 182 s.
58. Rzasoy S. Oğuz mifologiyası. Bakı: Nurlan, 2009, 363 s.
59. Sehirli sünbüllər. Azərbaycan mifləri. /Toplayıcı və ön sözün müəllifi A.Nəbiyev. Bakı: Gənclik, 1990, 144 s.
60. Seyidov M.M. Qam-şaman və onun qaynaqlarına ümumi baxış. Bakı: Gənclik, 1994, 232 s.
61. Şaman əfsanələri və söyləmələri. Bakı: Yazıçı, 1993, 144 s.
62. Şəfizadə B. Zərdüşt. Avesta. Azərbaycan… Bakı: Elm, 1996, 324 s.
63. Təhmasib M.H. Seçilmiş əsərləri.2 cilddə.I cild. Bakı: Mütərcim, 2010, 488 s.

64. Vəliyev İ. Mif: keçmişdən gələcəyə. Bakı: Nurlan nəşriyyatı, 2013, 308 s.
65. Vəliyev K.N. Elin yaddaşı, dilin yaddaşı. Bakı: Gənclik, 1987, 280 s.
66. Bayat F. Türk mitolojik sistemi. 2 ciltte / Cilt 1. İstanbul: Ötü-ken, 2007, 380 s.
67. İnan A. Tarihte və bu gün şamanizm / Materyaller ve araştır-malar. Ankara: Türk tarih Kurumu Basımevi, 2013, 229 s.
68. Necati G. Türk mitolojisi yeni araştırmalar işığında. İstanbul: Resse yayınları, 2014, 659 s.
69. Ögel B. Türk mitolojisi. Kaynakları ve açıklamaları ile destanlar. I-II cilt. Ankara: Türk Tarih Kurumu Basımevi, 1989-1995, 644 s.
70. Грейвс Р.Мифы древней Греции.М.: Прогресс, 1992, 624 с.
71. Гримм Я. Немецкая мифология. Зарубежная эстетика и теория литературы XIX-XX вв. /Трактаты, статьи, эссе. М.: МГУ, 1987, с.54-71.
72. Гуревич А.Я. «Эдда» и сага. М.: Наука, 1979, 192 с.
73. Косидовский З. Библейские сказания. М.: Наука, 1978, 455 с.
74. Левкиевская Е. Мифы русского народа. М.: ООО «Изда-тельства Астрель»; ООО «Издательство АСТ», 2003, 528 с.
75. Лосев А.Ф. Диалектика мифа. /Из ранних произведений. М.: Наука, 1990, 558 с.
76. Маковельский А.О. Авеста. Баку: Азгосиздат, 1960, 144 с.
77. Мелетинский Е.М. Поэтика мифа. М.: Наука, 1976, 406 с.
78. Оппенхейм А. Древняя Месопотамия. /Портрет погибшей цивилизации. М.: Наука, 1990, 319 с.
79. Стеблин-Каменский М.И. Древнескандинавская литера-тура. М.: Наука, 1979, 343 с.
80. Тайлор Э.Б. Первобытная культура. М.: Издательство политической литературы,1989, 573 с.

81. Топоров В.Н. Первобытные представления о мире (общий взгляд) / Очерки естественнонаучн. знаний в древности. М.: Наука, 1982, с. 8-40
82. Фрэзер Д.Д. Фольклор в Ветхом завете. М.: Издательство Политической литературы, 1989, 542 с.